UOT 336.1

*Aynur Həsən qızı MƏMMƏDLİ*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

# DÖVLƏT MALİYYƏ NƏZARƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

*Xülasə*

Məqalədə tədqiqatın əsas məqsədi dövlət maliyyə nəzarətinin zəruriliyinin, dövlət maliyyə nəzarəti sistemində mövcud problemlərin araşdırılması və onların səmərəli həlli yollarının axtarılması məsələlərini müəyyənləşdirməkdir. Həmçinin maliyyə nəzarətinin rolunun elmi-metodoloji araşdırılması və müasir şəraitdə dövlət maliyyə nəzarəti sisteminin fəaliyyətinin qiymətləndirilməsi məsələləri öz əksini tapmışdır. Hazırda dövlət maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyət istiqamətlərinin və rolunun açıqlanması, orqanların səmərəli fəaliyyəti istiqamətində fərdi təkliflərin irəli sürülməsi məqalənin əhəmiyyətliliyini və orijinallığını təsdiq edir.

***Açar sözlər:dövlət maliyyə nəzarəti, maliyyə nəzarətinin növləri, maliyyə nəzarətinin metodları, dövlət maliyyə nəzarətini həyata keçirən orqanlar.***

## *Giriş*

Maliyyə nəzarəti bütün təsərrüfat və idarəetmə subyektlərinin maliyyə qanunvericiliyinə riayət edilməsinin təşkili üzrə tədbirlər toplusundan, o cümlədən maliyyə əməliyyatlarının səmərəliliyinin və aparılmış xərclərin məqsədəuyğunluluğunun qiymətləndirilməsindən ibarətdir. Maliyyə nəzarəti nəinki bu və ya digər maliyyə fəaliyyətinin qanunauyğunluğunun qiymətləndirilməsindən ibarətdir, həm də təhlil aspektinə malikdir. Maliyyə nəzarəti ölkənin sosial-iqtisadi inkişafı məqsədilə istər müəssisələrin, istərsə də dövlətin və bələdiyyələrin pul fondlarının təşkili, bölüşdürülməsi və məqsədyönlü istifadə edilməsi üzərində nəzarətdir.

Maliyyə nəzarəti də maliyyə münasibətlərinin tədricən inkişaf etdirilməsinə görə dəyişilmişdir. Tarixən o, dövlət xəzinə vəsaitlərinin xərclənməsinə dövlət nəzarəti kimi mövcud olmuşdur. Maliyyə münasibətləri sahəsinin genişləndirilməsi, təsərrüfat subyektləri arasında qarşılıqlı maliyyə əlaqələrinin möhkəmləndirilməsi, maliyyə bazarlarının yaradılması və inkişaf etdirilməsi, biznesin yaradılması formalarının təkmilləşdirilməsi maliyyə nəzarətinin yaradılması üzrə adekvat forma və metodların dəyişilməsini və tətbiq edilməsini tələb edirdi. S.V.Stepaşin "Dövlət maliyyə nəzarəti" əsərində maliyyə nəzarətinin obyekti kimi milli gəlirin istehsalı, bölüşdürülməsi və onun səmərəli istifadəsinə dair bir tərəfdən dövlət, digər tərəfdən hüquqi və fiziki şəxslər arasında yaranan münasibətləri müəyyən edir.

Maliyyə nəzarəti öz inkişafı zamanı digər funksional iqtisadi elmlərə inteqrasiya olunur. Maliyyə nəzarəti iqtisadi nəzəriyyədən faydalanaraq idarəetmə sistemində, bölgü və istehlak sistemində özünün praktik məsələləri ilə həyati əhəmiyyəti olan bir rola sahibdir. Cəmiyyətdəki nisbətsizlikləri və neqativ halları üzə çıxararaq onların aradan qaldırılmasına və yenidən təkrarlanmamasına səbəb olur, eləcə də istehsal münasibətlərini rasional yenidən təşkil etməyə, istehsal gücündən optimal olaraq faydalanmağa kömək edir.

**Maliyyə nəzarətinin formalaşmasının nəzəri-metodoloji əsasları**

Nəzarət maliyyənin əsas funksiyasıdır. Nəzarət olmadan mütərəqqi maliyyə sistemi qurmaq mümkün deyil. Maliyyə nəzarəti sferasına pulun istifadə olunması ilə həyata keçirilən bütün əməliyyatlar daxildir. Bu zaman ilk növbədə maliyyə ehtiyatlarının formalaşdırılması, həmçinin fəaliyyətin bütün növləri üzrə pul vəsaitləri fondlarının qarşılıqlı əlaqələri qeyd edilməlidir. Maliyyə nəzarətinə aşağıdakı istiqamətlər daxildir:

- iqtisadi qanunların tələblərinə nəzarət olunması;
- məcmu ictimai məhsulun dəyərinin və milli gəlirin bölgüsü və yenidən bölgüsü;
- büdcənin tərtib edilməsi və büdcə nəzarəti;
- vergi nəzarəti.





D.Q.Çernik maliyyə nəzarətinin mahiyyətini bu qaydada açıqlayır: "Maliyyə nəzarəti maliyyənin nəzarət funksiyasının həyata keçirilməsinin forması kimi çıxış edir. Onun məzmunu və təyinatı təsərrüfat subyektlərinin, sahə (idarə) və ərazi idarəetmə subyektlərinin maliyyə fəaliyyətinin yoxlanılmasından ibarət olur. Maliyyə nəzarəti aşağıdakı vəzifələrin yerinə yetirilməsinə xidmət edir:

- maliyyə vəsaitlərinə olan tələbatlar və vəsaitlərin formalaşması arasında tarazlığın təmin edilməsi;
- dövlət büdcəsi qarşısında maliyyə öhdəliklərinin tam və vaxtında təmin edilməsi;
- müəssisə və təşkilatların pul vəsaitlərindən səmərəli istifadə olunmasına, uçot və hesabat işlərinin düzgün qurulmasına kömək etmək;
- qüvvədə olan qanunvericilik və normativ aktlara riayət olunmasına nəzarəti gücləndirmək.

Beləliklə, maliyyə nəzarəti - xüsusi forma və üsul tətbiq etməklə təsərrüfat və idarəetmə obyektlərinin maliyyə fəaliyyətinin və onunla bağlı əməliyyatların yoxlanması məcmusundan ibarətdir. Dövlət maliyyə nəzarətinin əsas vəzifəsi maliyyə qanunvericiliyinə, maliyyə intizamına riayət edilməsinin və büdcə və qeyri-büdcə vəsaitlərindən məqsədsiz istifadəyə yol verilməməsinin təmin edilməsi vasitəsilə dövlətin maliyyə siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsinə kömək etməkdir. Xüsusi səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən maliyyə fəaliyyətinin məzmunundan asılı olaraq maliyyə nəzarətinin növlərini bu şəkildə qruplaşdırmaq olar". [2, s. 91]




***Şəkil 1. Maliyyə nəzarətinin növləri.***

Maliyyə nəzarətinin predmeti kimi müxtəlif maliyyə göstəriciləri mövcuddur ki, bunları da müxtəli səviyyəli büdcələrin gəlirləri və xərcləri, vergi ödənişlərinin miqdarı, təsərrüfat subyektlərinin gəlirləri, onların dövriyyə xərcləri, maya dəyəri, ev təsərrüfatlarının gəlirləri və xərcləri kimi qruplaşdırmaq olar.

Maliyyə nəzarətinin aşağıdakı metodlarını ayırırlar:

- yoxlama;
- nəzarət;
- müşahidə;
- təftiş. [2, s. 97]

Yoxlama - hesabat sənədləşmələri və məxaric sənədləri əsasında maliyyə fəaliyyətinin ayrı-ayrı məsələləri üzrə aparılır. Maliyyə intizamının pozulması zamanı mənfi nəticələrin aradan qaldırılması məqsədilə tədbirlər görülür.

Nəzarət - qanunvericilikdə nəzərdə tutulmuş norma və tələbatlara uyğun olaraq maliyyə əməliyyatlarının aparılması məqsədilə onların həyata keçirilməsinə nəzarətdir.

Müşahidə (monitorinq) - bu nəzarət subyektinin maliyyə resurslarının istifadə olunmasına və onun maliyyə vəziyyətinə daimi nəzarətdir.

Təftiş-maliyyə nəzarətinin daha geniş yayılmış və hərtərəfli metodudur. Subyektin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarətin əhatə genişliyinə görə tam, natamam, tematik və kompleks təftişləri fərqləndirmək olar.

Beynəlxalq təcrübə göstərir ki, dövlət maliyyə nəzarəti dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsi, eləcə də ölkədə maliyyə stabilliyi üçün şərait yaradılmasına xidmət etməlidir.

Dövlət quruluşunun təşkili xüsusiyyətlərindən asılı olaraq bütün ölkələrdə özünəməxsus maliyyə nəzarəti sistemi formalaşır. Beynəlxalq təcrübədə dövlət maliyyə nəzarəti orqanları demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsi və ictimai maliyyə vəsaitlərinin idarə edilməsinin vacib elementi kimi təşəkkül tapmışdır. Dövlət maliyyə nəzarəti qanunvericiliklə müəyyən edilən və dövlət hakimiyyət orqanları və idarələri tərəfindən həyata keçirilən nəzarət forması olmaqla dövlətin pul və maliyyə resurslarının idarə olunmasında səhvlərin, yanlışların, sui-istifadə hallarının, maliyyə-büdcə qanunvericiliyinin pozulmasının, dövlətin iqtisadi və maliyyə təhlükəsizliyi üçün yaranacaq təhdidlərin aşkar edilməsinə və qarşısının alınmasına yönəldilir.

Dövlət maliyyə nəzarəti orqanları, bir qayda olaraq, dövlət maliyyəsinin idarə olunmasında vacib və aktiv rol oynayırlar. Mövcud dövlət maliyyə nəzarəti orqanlarının əksəriyyəti müstəqildir və onların fəaliyyəti kifayət qədər məhsuldar və səmərəlidir. Bu baxımdan ölkəmizdə xarici ölkələrin dövlət maliyyə nəzarət sisteminin fəaliyyətinin müsbət cəhətlərinin tətbiqi nəzarət işinin effektivliyinin xeyli dərəcədə artmasına, büdcə vəsaitlərinin səmərəli istifadəsinə, dövlət əmlakının qorunmasına, büdcə kəsirinin azalmasına, bu da öz növbəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və iqtisadi dirçəlişə səbəb olur. [3, s. 3]

Maliyyə nəzarətinin funksiyası əsasında insanların praktik fəaliyyətində rasional istifadə üçün onun yaranmasının, inkişafının və dəyişiklik qanunauyğunluqlarının müəyyən olunması üçün müəyyən bir obyektin öyrənilməsi prinsipi durur. Buna görə də bir elmi sistem olaraq maliyyə nəzarətinin inkişaf etdirilməsi üçün zərurət yaranır. Bu elmi konsepsiyadan çıxış edərək maliyyə nəzarəti iqtisadi biliklərin dinamik sistemidir ki, istehsal gücü və istehsal münasibətlərinin inkişafında geniş təkrar istehsal zamanı, onları nizamlamaq zamanı neqativ halların aradan qaldırılmasına yönəldilmişdir. Maliyyə nəzarəti bütün iqtisadi elmlər kimi cəmiyyətin zəruri məhsullarının geniş təkrar istehsal münasibətlərini öyrənir. Ona görə də iqtisadi qanun və kateqoriyaların keyfiyyətinin müəyyənləşdirilməsi ilə məhdudlaşa bilməz, bu elm onların kəmiyyət baxımından da əlaqələrini və münasibətlərini öyrənir.

Dünya təcrübəsində maliyyə nəzarətinin 2 əsas modeli mövcuddur:
- anqlosakson;
- fransız.

Anqlosakson modelində nəzarət edən maliyyə orqanları yalnız müxtəlif nəzarət növlərini yerinə yetirir və onlar üzrə hesabat hazırlayır. Sanksiyaların tətbiqi dövlət hakimiyyətinin, inzibati və məhkəmə hakimiyyəti orqanlarının ixtiyarına verilir. Fransız modelində isə maliyyə pozuntularına yol verən şəxslərin təqsirliyinin müəyyən olunmasında və itkilərin kompensasiyasının tələb olunmasında ayrı-ayrı nəzarətçi orqanlara məhkəmə funksiyalarının verilməsi imkanı nəzərdə tutulur.

**Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi**

Dövlət maliyyə nəzarətində islahatların və onun inkişafının maliyyə təminatı problemini həll etmək baxımından dövlət maliyyə nəzarətinin inkişaf fondunun təşkil edilməsi zərurəti və həmin fondda yoxlamaların nəticəsinə əsasən aşkar edilmiş ziyanın məbləğinin müəyyən faizi həcmində, eləcə də hüquqi şəxslərin könüllü ianələri şəklində ayırmalar etmək hüququnun təsbit edilməsi elmi-normativ nəzərdən müəyyənləşdirilmişdir.

Dövlət xərclərinin idarə edilməsinin təkmilləşdirilməsi yollarından biri kimi dövlət büdcəsinin bütün xərcləri üzrə xərc normativlərinin işlənib hazırlanması və mövcud normativlərin təkmilləşdirilməsi həyata keçirilməlidir. Dövlət xərclərinin səmərəliliyini artırmaq üçün büdcədən maliyyələşən təşkilatlar öz məsuliyyətlərini artırmalı, sərəncamlarında olan vəsaitlərdən istifadədə qənaət rejiminə əməl etməli və artıq xərclərə yol verməməlidir.

Dövlət maliyyə nəzarəti sisteminin təşkilati təminatının formalaşması nöqteyi-nəzərindən bu sistemin təşkilati-struktur əsasının ikisəviyyəli olması elmi cəhətdən əsaslandırılmışdır:

Birinci səviyyə - dövlət maliyyə nəzarəti orqanlarını və onları əlaqələndirən orqanı, habelə onlarla bilavasitə bağlı olan sair təşkilatları əhatə edir;





İkinci səviyyə - özlərinin bilavasitə idarəetmə vəzifələrinin tərkib hissəsi kimi qanunvericiliklə nəzarət funksiyaları həvalə edilən bütün digər dövlət orqanlarının aparatını birləşdirir.

Azərbaycan Respublikasında maliyyə nəzarətini Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Mərkəzi Bank və digər müvafiq orqanlar həyata keçirir.

Azərbaycan Respublikasının ali maliyyə nəzarəti orqanı Hesablama Palatasıdır. Hesablama Palatası dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə rəy verir, büdcələrin gəlir və xərc maddələrinin həcmi, strukturu və təyinatı üzrə vaxtında icrasına nəzarət edir. Ali maliyyə nəzarət orqanı olan Hesablama Palatası dövlət büdcəsi vəsaitlərinin bank hesablarında hərəkəti barədə Mərkəzi Bankdan məlumat alıb təhlil edərək Milli Məclisə təkliflər verir.

Son illər müəssisə, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinə çoxlu sayda əsassız müdaxilələrin qarşısını almaq, iri, orta və kiçik sahibkarlığın respublikamızda inkişafına əngəl törədən maneələri aradan qaldırmaq məqsədilə dövlət tərəfindən ciddi tədbirlərin görülməsi dövlət maliyyə nəzarətinin zəruriliyini təsdiq edir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Strateji Yol Xəritəsində nəzərdə tutulmuş tənzimləmə və nəzarət mexanizminin təkmilləşməsi zərurəti mövcud iqtisadi mühitdə maliyyə institutlarının risklərə həssaslığının artması ilə əlaqədardır. Maliyyə institutlarında sağlam risk idarəetməsi proseslərini və rəqəmsal transformasiyanı təşviq edən yeni tənzimləmə və nəzarət arxitekturasının formalaşdırılması üzrə strateji hədəflər müəyyən edilmişdir.

Son vaxtlar dünyada baş verən iqtisadi-siyasi proseslər ölkədə qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, habelə ödəniş sistemlərinin fəaliyyətinin çevikliyinin və şəffaflığının təmin olunmasını, həmçinin bu sahələrdə tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsini zəruri etmişdir. Ölkənin maliyyə sisteminin daha da sabit və dayanıqlı, rəqabətqabiliyyətliliyinin daha da yüksək olması üçün maliyyə bazarlarının fəaliyyətinin səmərəli şəkildə təmin olunması, eləcə də kreditorların, investorların və sığorta olunanların hüquqlarının qorunması tələb olunur. Azərbaycan Respublikasının qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsi, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılmışdır.

Maliyyə Monitorinqi Xidməti Azərbaycan Respublikası Prezidentinin 25 may 2018-ci il tarixli 95 nömrəli Fərmanı ilə yaradılmışdır. Hazırda Maliyyə Monitorinqi Xidməti Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

Ölkə qanunvericiliyinə müvafiq olaraq vergi məsələləri üzrə maliyyə nəzarəti Azərbaycan Respublikası Vergilər Nazirliyi və onun yerlərdəki orqanları tərəfindən həyata keçirilir. Dövlət gəlirləri tərkibində vergilərin xüsusi çəkisinin artması vergi orqanlarının nəzarət işində məsuliyyətini daha da artırmışdır. Vergi orqanları tərəfindən vergilərin düzgün hesablanmasına, onların tam və vaxtında ödənilməsinə, vergi qanunvericiliyinə dəqiq riayət edilməsinə və digər məsələlərə nəzarət edilir. Azərbaycan Respublikasında vergi nəzarətinin forma və üsulları Azərbaycan Respublikasının "Vergi Məcəlləsi" ilə müəyyən edilir. Vergi nəzarətinin əsas məqsədi vergidən yayınma hallarının qarşısının alınmasıdır.

2016-cı ildə Azərbaycan prezidenti İlham Əliyevin Fərmanı ilə təsdiqlənmiş Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərildiyi kimi, vergi sistemi və onun idarə olunması əlverişli biznes mühitinin əhəmiyyətli bir hissəsi olduğundan Azərbaycanda sahibkarlıq subyektləri tərəfindən vergi ödənişlərinin həyata keçirilməsini asanlaşdıran islahatlar aparılıb. Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi

inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatlar davam etdirilir.

Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmləri hazırlayaraq onların həyata keçirilməsini Dövlət Gömrük Komitəsi təmin edir. Dövlət Gömrük Komitəsi gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür.

Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il Sərəncamı maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi məqsədini daşıyır.

Maliyyə Nazirliyi Azərbaycan Respublikasında maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən mərkəzi icra hakimiyyəti orqanıdır. O, Azərbaycan Respublikasında maliyyə, büdcə, vergi sahəsində dövlət siyasətini işləyib hazırlayır, makroiqtisadi göstəricilərin proqnozlaşdırılmasında mühüm rol oynayır, iqtisadiyyatın dövlət tənzimlənməsinin inkişaf istiqamətləri barədə təkliflər hazırlayır.

Ölkədə xəzinədarlıq sisteminə keçid öz müsbət nəticələrini göstərmişdir. Əvvəllər Maliyyə Nazirliyi əsas xüsusi fondların, xüsusilə Dövlət Sosial Müdafiə Fondunun apardığı əməliyyatlar haqqında çox məhdud informasiyaya malik idi. Büdcədənkənar fondların xəzinədarlıq sistemi vasitəsilə icrasının tətbiq edilməsində, sonra həmin vəsaitlərin yığılması və təyinatına xərclənməsinə nəzarət güclənmiş, ümumiyyətlə dövlət maliyyəsinin idarə edilməsinin səmərəliliyini artırmışdır.

Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il Fərmanı Azərbaycan Respublikasında əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək üçün dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindən hesab edilmiş və bu istiqamətdə həyata keçirilən tədbirlər, reallaşdırılan iqtisadi və institusional islahatlar vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşmasında, yeni iş yerlərinin açılması sayəsində əhalinin məşğulluğunun və gəlirlərinin artmasında, yoxsulluq səviyyəsinin daha da azalmasında öz müsbət nəticələrini göstərməkdədir.

Lakin qlobal iqtisadi və maliyyə böhranının ölkə iqtisadiyyatına təsirləri əhalinin müəyyən qrupunun ödəmə qabiliyyətinin zəifləməsinə, bunun da nəticəsində, kredit təşkilatlarından xarici valyutada borc almış vətəndaşların bank sistemi qarşısında vaxtı keçmiş kreditlər üzrə öhdəliklərinin artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələlərə məhkəmə müstəvisində baxılma hallarının çoxalmasına rəvac vermişdir.

Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyi təmin edilmişdir.

Azərbaycan Respublikasında fəaliyyətdə olan bütün dövlət maliyyə nəzarəti orqanlarının hər birinin fəaliyyəti maliyyə sabitliyini və maliyyə dayanıqlığını qoruyub saxlamaqla yanaşı müstəqil dövlətçiliyimizin bünövrəsinin möhkəmlənməsinə xidmət edir.

### *Nəticə*

Respublikamızda maliyyə nəzarəti orqanlarının səmərəli və şəffaf fəaliyyət göstərməsi sahəsində atılan çoxsaylı addımlara baxmayaraq mövcud daxili və xarici səbəblər ucbatından buna tam nail olmaq mümkün olmamışdır. Maliyyə nəzarəti sisteminin effektiv fəaliyyətinin əsas problemlərindən biri maliyyə-büdcə qanunvericiliyinin pozulmasına görə adekvat tədbirlərin kifayət qədər yumşaq olmasıdır. Dövlət maliyyə nəzarətinin mövcud problemlərini doğuran və dövlət maliyyə sisteminin formalaşmasına mənfi təsiri elmi cəhətdən əsaslandırılmış göstəricilər aşağıdakılardır:





- Təkmil və tam normativ-hüquqi baza yoxdur. Mövcud baza sadəcə olaraq çoxsaylı tələblərin toplusudur. Dövlət maliyyə nəzarəti sistemi kompleks və sistemli olaraq standartlaşdırılmamışdır, deməli, onun metodoloji bazası, ümumi qaydaları yoxdur. Yoxlamaların sayca çox, lakin az səmərəli olması çox vaxt təsərrüfat fəaliyyətini pozur. İnkişaf etmiş ölkələrdə sınaqdan çıxarılmış müasir nəzarət texnologiyaları tətbiq edilmir.
- Dövlət nəzarətçilərinin kifayət qədər etibarlı hüquqi, maddi-texniki və sosial bazası yoxdur. İdarə səviyyəli nəzarətin subyektlərinin fəaliyyətinin təşkil edilməsi və həyata keçirilməsi ölkədə reallaşdırılan islahatların tələblərinə cavab vermir.
- Dövlət orqanlarının nəzarət fəaliyyəti ona təqdim olunan tələblərə tam cavab vermir, bu orqanların bəzilərində mövcud hesabat sistemi onların öz funksiyalarını real icra etməsi barədə mühakimə yürütməyə imkan vermir.

Aparılan tədqiqat işi dövlət maliyyə nəzarəti orqanları sisteminin strukturunun təkmilləşdirilməsi üçün bu analitik və təşkilati-texniki məsələlərin həll olunmasının vacibliyini əsaslandırmağa imkan vermişdir:

- ✓ Dövlət maliyyə nəzarəti orqanları sisteminin dairəsinin dəqiq müəyyən edilməsi və dövlətin siyasətinə müvafiq olaraq bu sistemin təkmilləşdirilməsinin məqsədlərini müəyyən etmək;
- ✓ Dövlət maliyyə nəzarətinin qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün zəruri olan əsas məsələlərin müəyyən edilməsi;
- ✓ Eynitipli məsələlərin qruplar halında birləşdirilməsi və onların əsasında sistemin həmin məsələləri yerinə yetirmək üzrə ixtisaslaşmış struktur vahidlərinin təkmilləşdirilməsi;
- ✓ Dövlət maliyyə nəzarəti orqanları sisteminin dövlət idarəetmə sisteminin digər vasitələri ilə inteqrasiyası;
- ✓ Hər bir struktur vahidlərinin məqsədlərinin, vəzifələrinin, funksiyalarının, hüquqlarının və məsuliyyətinin müəyyən edilməsi, onların qarşılıqlı münasibətləri sxeminin işlənib hazırlanması, bütün bunların müvafiq normativ-hüquqi aktlarda sənədli şəkildə təsbit olunması;
- ✓ Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinə dair mühüm məsələlərin işlənib hazırlanması, strukturun monitorinqi və təkmilləşdirilməsi.

## ƏDƏBİYYAT


1. Zeynalov V.Z. Maliyyə (Dərs vəsaiti). Bakı, "İqtisad Universiteti" nəşriyyatı-2010.
2. Bağırov D.A., Həsənli M.X. Maliyyə (Dərs vəsaiti). Bakı, 2011.
3. Sadıqov M.M. Maliyyə (Dərslik). Gəncə, ADAU, 2010.
4. president.az
5. maliyye.gov.az
6. stat.gov.az
7. taxes.gov.az

***Айнур Гасан кызы Мамедли***
***докторант Азербайджанского Государственного***
***Экономического Университета***

**Государственный финансовый контроль и его совершенствование**

***Резюме***

В статье основной целью исследования является определение необходимости государственного финансового контроля, исследование существующих проблем в системе государственного финансового контроля и поиск эффективных путей их решения. Также были отражены вопросы, научно-методическое исследование роли финансового контроля и оценки функционирования системы государственного финансового контроля в современных условиях. В настоящее время раскрытие деятельности и роли органов государственного финансового контроля, выдвижение индивидуальных предложений по эффективному функционированию органов власти подтверждают важность и достоверность статьи.

***Ключевые слова: государственный финансовый контроль, виды финансового контроля, методы финансового контроля, органы, осуществляющие государственный финансовый контроль.***

***Aynur Hasan Mammadli***
***PhD student of UNEC***

**State financial control and its improvement**

***Summary***

The main purpose of the research is to define the necessity of state financial control, issues of investigation of existing problems in the state financial control system and search for effective ways of solving them. A scientific-methodological study of the role of financial control and evaluation of the functioning of the state financial control system in modern conditions are also reflected. Recently, the disclosure of the activitiy directions and the role of the state financial control bodies, the submission of individual proposals for the effective functioning of the authorities confirms the relevance and authenticity of the article.

***Key words: state financial control, types of financial control, methods of financial control, state financial control bodies.***